

# Ömür bir yuxu imiş...

## Mir Cəlal məktəbinin yetirmələri

## "Fəxr edirəm ki, onlardan biri də mənəm..."

Müsahibimiz məhz belə ziyalılarımızdandır. Əslində Şamil müəllimi oxucularımıza təqdim etməyə lüzum yoxdur. Çünki onların əksəriyyəti onun xeyir-duası ilə tutduqları vəzifəyə təyinat alıb fəaliyyət göstərirlər. Bununla belə yaşa dolub dünyasını dəyişənlər, təqaüdə çıxanlar, son vaxtlar aparılan islahatlarla bağlı iş yerini tərk edənlər və yeni təyin olunanlar da az deyil. Odur ki, söhbətimizə Ş.Axundovun ömür kitabını vərəqləməklə başlamaq niyyətindəyik.

> *Həyatın qəribə qanunları var. Çox şeyin qədrini onu itirdikdən sonra bilirik. Nə qədər ki, cavanıq zamanla hesablaşmırıq. Xəyalımız daim sabaha qanadlanır. Fərqinə də varmırıq ki, hamısı ömürdən-gündən gedir, sonralar dönə-dönə ötən çağların xiffətini çəkəcəyik...*
>
> *Amma taleyin bəxş etdiyi ömür payını mənalı yaşayanlar üçün burada bir istisna var. Onların nə gənclik şövqü itir, nə də gələcəyə ünvanlanan arzu-istəyi tükənir.*

Şəmsəddin Əşrəf oğlu Axundov 1932-ci il dekabrın 3-də anadan olub. 1956-cı ildə Azərbaycan Dövlət Universitetini (indiki BDU-nu) bitirib. 1956-1965-ci illərdə Mədəniyyət Nazirliyində metodist-inspektor, baş metodist, şöbə müdiri, 1965-1969-cu illərdə Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsində məsul katib, sədr, 1969-1981-ci illərdə Azərbaycan Həmkarlar İttifaqı Şurasında şöbə müdiri vəzifələrində çalışıb. 1981-1987-ci illərdə M.F.Axundov adına Respublika Kiatbxanasının elmi işlər üzrə direktor müavini işləyib. 1987-ci ildə yenidən düz 22 il əvvəl ayrıldığı Mədəniyyət Nazirliyinə qayıdıb. Onun üçün doğma olan bu kollektivdə 14 il çalışıb, daha məsul vəzifələr tutub – idarə rəisi, nazir müavini!

Hazırda Aviasiya Tarixi muzeyinin direktorudur.

Göründüyü kimi, Ş.Axundov 50 illik əmək fəaliyyəti dövründə neçə-neçə məsul vəzifələr daşıyıb. Hara, hansı işə göndərilibsə etimadı ləyaqətlə doğruldub. Zəhmətinə verilən qiymət də bunu sübut edir. O, «Şərəf nişanı», «Qırmızı əmək bayrağı» ordenlərinə, «Əmək rəşadətinə görə», «Əmək igidliyinə görə», «Uzunmüddətli fədakar əməyə görə», «SSRİ Xalq Təsərrüfatındakı Nailiyyətlərinə görə», «Əlaçı mədəniyyət işçisi» medallarına layiq görülmüşdür. 1978-ci ildən Respublikanın əməkdar mədəniyyət işçisidir.

Maraqlı burasıdır ki, bu illər ərzində Ş.Axundov cəmi beş kollektivdə çalışmışdır. Bu da onun insanlara və işinə olan sədaqət və məsuliyyətinin təzahürüdür.

Bütün rəsmi sənədlərdə «Şəmsəddin» kimi getsə də hər kəs onu «Şamil» deyə çağırır. Bunun səbəbini aşağıda açıqlayacağıq.

Şamil müəllimdə diqqət çəkən xüsusiyyətlərindən biri də onun maraqlı həmsöhbət olmasıdır. Onunla yubileyi ərəfəsində görüşdük. Söhbətə giriş kimi ona tələbəlik illərini xatırlatdıq.

Bir anlıq fikrə daldı. Görünür, 50 illik uzaq məsafədə qalmış ömrün o əlçatmaz, ünyetməz gözəl çağlarını yenidən yaşamaq üçün xəyalən 1950-1955-ci illərə qanadlanır, tərəvətini hələ də saxlamış unudulmaz günləri gözləri önünə gətirməyə çalışırdı. Nəhayət, aram-aram söhbətə başladı:

- O vaxt jurnalistika hələ fakültə deyildi. Məntiq, psixologiya, şərqşünaslıq, biblioqrafiya kimi o da şöbə şəklində filologiya fakültəsinin nəzdində fəaliyyət göstərirdi. Tələbələrin sayı çox az idi. Cəmi 25 nəfər. Mən həm şöbə, həm də bütün fakültənin sinifkomu idim. Onda «sinifkom» sözü daha dəbdə idi. İndikitək qrup nümayəndəsi deyirdilər. O zaman biz indiki İstiqlaliyyət küçəsində Xalq Təsərrüfatı İnstitutunun binasında təhsil alırdıq. Mir Cəlal Paşayev ən sevimli müəllimiz idi. Çox mehriban, qayğıkeş və hazırlıqlı idi. Mühazirəni başqalarından fərqli olaraq sinədən deyərdi. Onun qəribə bir şakəri vardı. Sol əlində balaca bir bıçaq oynadar, cərgələr arasında aram addımlarla gəzər, maraqlı dərs aparardı.

Mən o vaxt çox səliqəli geyinərdim. Ailədə maddi durumumuz yaxşı idi. Elə boy-buxunda da pis deyildim. Auditoriyada hamıdan seçilirdim. Sonda bütün bunların mənim sinifkom seçilməyimdə və Şamil adı ilə məşhurlaşmağımda xüsusi təsiri olacaqdı.

Əvvəlcə sinifkomluq haqqında danışaq. Ədəbiyyat nəzəriyyəsi dərsi idi. Mir Cəlal müəllim əyləşdiyim yerdə dayandı və sağ əlini çiynimə qoydu.

- Oğul, görürəm burada bir az diribaş uşaq sənsən. Bütün jurnalları yığıb gətirərsən qeydlərimi edərəm.

Beləcə, mexaniki surətdə oldum şöbə və fakültə nüməyəndəsi. Əvvəllər Mir Cəlal müəllim İçəri Şəhərdə yaşayırdı. Sonra 28 May küçəsinə, oradan da Azneftdə əjdaha abidəsinin yanındakı binaya köçdü. Bunları mən haradan bilirəm? Bunların da öz maraqlı tarixçəsi var.

Bizdə dekanın Nadya adında bir katibəsi vardı. Azərbaycanca təmiz danışırdı. Təhmasibin dərsində ikən məni çağırtdırdı ki, təcili bir iş var. Ona yaxınlaşdım. Bildirdi ki, bu sənədləri Mir Cəlal müəllimə çatdırmaq lazımdır. Sənədləri gecə ikən işləməlidir. Qovluğu vurdum qoltuğuma, Mir Cəlal müəllimgilə getdim. Qapını həyat yoldaşı Püstə xanım açdı. Bircə biləydiniz nə qədər gözəl, mehriban, nəzakətli, həlim, qayğıkeş idi. Mən indi fikirləşirəm ki, Mir Cəlal Paşayevin uğurlarında o böyük insanın zəhməti çox olmuşdur. Bəlkə də diqqətcillikdə o, Mir Cəlal müəllimi də qabaqlayırdı. Yedizdirməmiş evindən buraxmazdı...

Arif müəllim eynən ona çəkib. Gendir də, hamısı qandan gəlmə bir şeydir. Sanki bu müdrik məsəl Püstə xanım üçün deyilibmiş: «İgidi qeyrət, varlını səxavət yaşadar».

Bütün bu müsbət keyfiyyətlər Arif Paşayevdə var. Arif müəllim hamının nəzər-diqqətindədir. O qədər alicənab, o dərəcə də qayğıkeşdir ki.

Mən bu müqəddəs ailəyə dəfələrlə getmişəm. Ən çox da əjdahanın yanındakı evə. Bu gediş-gəliş 1969-cu ildən daha da artdı. Məndən əvvəl bir görün bu ailəyə kimlər gəlmişdir. Səməd Vurğun, Şıxəli Qurbanov, Nurəddin Babayev...

Bu gün qürur hissilə deyə bilərəm ki, Mir Cəlal müəllim xətrimi çox istəyirdi. Məni doğmalarından ayırmazdı.

50 il əvvəl bitirsəm də universitet dostlarımdan çoxları ilə əlaqə saxlayıram. Müəyyən hissəsi artıq dünyasını dəyişib. Nəriman Zeynalov, Təhsin Mütəllimov, Cəlal Abdullayev, Xalid Əlimirzəyev, Elman Araslı, Cabir Novruz... və başqaları ilə bir oxumuşuq.

Mənim atam uzun müddət ticarət sahəsində çalışıb. Çox qoçaq kişi idi. Dolanışığımız həmişə yaxşı olub...

***- İndi siz özünüz də gözəl ata, çoxsaylı nəvələrin və bir nəticənin mehriban babasısınız. Bunların hansı daha çətindir:yaxşı ata olmaq, yoxsa oğul?***

- Əlbəttə, bunların hər birinin özünəmünasib çətinlikləri var. Amma mən düşünürəm ki, yaxşı oğul həm də yaxşı ata olur. O valideyn xoşbəxtdir ki, övladından yarıyıb. Atanın, ananın qədrini bilməklə övlad çox savab iş görür. Bələlərinin işini Allah da yoluna salır. Valideynini sevindirən adam heç vaxt pis vəziyyətə düşməz. Allah-təalanın nəzəri bələlərinin üzərindən əksik olmur.

Bir də bilirsinizmi, övladın yaxşı olması da çox vaxt qandan gəlir, valideynin tərbiyəsindən gəlir. Doğrudur, buna təsir edən başqa amillər də var. Amma ailədə tərbiyə möhkəm qurulanda hər şey öz qaydasında olur. Bax, Paşayevlər ailəsi bu mənada əsl nümunədir. Məsəl var deyərlər, uca dağlar gendən bəllidir. Yəni, yaxından bəzən o əzəməti hiss etməyə də bilərsən. Ondan aralandıqca bu möhtəşəmliyi daha aydın görür və bundan qürur duyursan.

Akademik Arif Paşayev də belədir. Onunla bir yerdə olanda özünü rahat, arxalı bilirsən. Mir Cəlal müəllim kimi pak, Püstə xanım kimi insanpərvər adamın övladı başqa cür ola da bilməzdi. İndi elə bir adam təsəvvür edə bilirsinizmi ki, dövlət ona mənzil ayıra, o isə başqasının vəziyyətini nəzərə alaraq həmin mənzildən imtina edə.

***- Təbii ki, yox.***

- Amma Mir Cəlal müəllim edib. Ona çatacaq evi Nəriman Həsənzadənin vəziyyətini nəzərə alıb və ona verilməsini təkid edib. Atanın etdiyi bu xeyirxahlığı oğlu da təkrarlayıb. Arif müəllim Nəriman Həsənzadəni akademiyanın kafedra müdiri təyin edib. Yaxşı ki, dünya bu cür gözəl insanlardan xali deyil.

- Bizim üçün qəribə görünməsə də çoxlarına maraqlı gəlir: «Şamil müəllim hara, Aviasiya Tarixi Muzeyi hara?!».

Bu yaşda belə çətin işin altına girməkdən qorxmadınızmı?

- Yox, qorxmadım... Əvvəla, mən muzey dünyası üçün «naşı adam» deyiləm. Bundan əvvəl, respublika mədəniyyət nazirinin müavini vəzifəsində çalışmış, Azərbaycanda muzey işinin təşkili və inkişaf etdirilməsi məsələlərinə rəhbərlik etmişəm. Bu isə muzeylərimizin yaranma tarixinə, habelə, muzey quruculuğunun incəliklərinə baş vurmağım üçün yaxşı şərait yaradıb. Digər tərəfdən isə Azərbaycanda Aviasiya tarixini əks etdirən yeni və unikal muzeyin yaradılmasında iştirakçı olmağı özümə şərəf sayıram...

Bu səbəbdən də Milli Aviasiya Akademiyasının rektoru, görkəmli fizik-akademik Arif Paşayev mənə belə bir işi təklif edərkən tərəddüd etmədən razılıq verdim.

***- Bilirsinizmi, sualımın təəccüb ifadə etməsi təsadüfi deyil. Fəaliyyətdə olan, yəni artıq yaradılmış muzeyə rəhbərlik etmək sizin kimi təcrübəli mütəxəssis üçün çətinlik törətməzdi. Amma muzeyi yaratmaq, necə deyərlər, işə sıfırdan başlamaq olduqca çətindir. Bir tərəfdən də milli aviasiya kimi gənc bir sahənin tarixini araşdırmaq, onun muzey salnaməsini yaratmaq istəyi görüləcək işləri bir qədər də çətinləşdirir.***

- Doğrudan da Azərbaycan Aviasiya Tarixi Muzeyini yaratmaq üçün sıfırdan başlamışıq. Mən bu muzeyi «quş dimdiyində dən-dən toplanan nadir xəzinə»yə bənzədərdim.

Nəzərə almaq lazımdır ki, dünya aviasiya tarixinin özü də çox gəncdir. Üstəlik bu texniki yenilik bizə – Rusiyanın təbəəsi və ucqar əyaləti olmuş Azərbaycana çox gec gəlib çatıb. Təsadüfi deyil ki, ötən əsrin əvvəllərində Azərbaycanın böyük satirik şairi Mirzə Ələkbər Sabir yazırdı: «Əcnəbilər göydə balonlarla gəzir, Biz hələ avtomobil minməyiriz». Ona görə də son illərədək müstəqilliyi və özünün aviasiya sənayesi olmayan ölkənin aviasiya tarixini formalaşdırmaq, başqa sözlə, Azərbaycan Aviasiya Tarixi Muzeyi yaratmaq olduqca gərgin axtarış və inadkarlıq tələb edir.

***- Bu muzey nə vaxt və hansı bazada yaradılmışdır?***

- «Yaradılmışdır» yox, «yaradılmaqdadır» desək, daha düzgün olar...



Əslində bu ideya ulu öndərimiz Heydər Əliyevə məxsusdur. O, muzeyləri «xalqın yaddaş xəzinəsi» adlandırır, onların ictimai-siyasi dəyərini belə qiymətləndirirdi: «Muzeylər mühüm mədəniyyət ocaqları olmaqla yanaşı, xalqın, xüsusilə cavan nəslin ideya-siyasi və mənəvi tərbiyə mərkəzinə çevrilməlidir».

Ötən əsrin 90-cı illərində Milli Aviasiya Akademiyasının yaradılması və onun uğurlu fəaliyyəti yeni muzey haqqında fikri daha da aktuallaşdırdı. Və nəhayət, 2005-ci ildə ulu öndərin arzusu reallaşdı. «Azərbaycan Hava Yolları» Dövlət Konserni (Az.AL) Milli Aviasiya Akademiyası nəzdində Azərbaycan Aviasiya Tarixi Muzeyi yaradılması haqqında qərar verdi...

***- Aviasiya Tarixi Muzeyinin məramı və indiyədək gördüyü işlər barədə məlumat verməyiniz maraqlı olardı.***

- Formalaşmaqda olan Aviasiya Tarixi Muzeyi milli aviasiyamızın tarixini dərindən öyrənməyi, onu tədqiq və təbliğ etməyi qarşısına məqsəd qoyub. Bunun üçün ilk növbədə aviasiyasımız və aviatorlarımız haqqında yazılı, təsviri və maddi materialların toplanması işi həyata keçirilməlidir. Bəri başdan deyim ki, qısa müddət ərzində bu sahədə xeyli iş görülüb. Muzeyin ekspozisiyasına daxil ola biləcək 3500-dən artıq material (yazılı, maddi, təsviri sənədlər, əşyalar, kino lentləri və s.) əldə edilib. Bunların arasında nadir eksponatlar az deyil. Topladığım materiallar bizə Azərbaycan aviasiyası tarixinin XX əsrin əvvəllərindən başlandığını deməyə əsas verir.

Muzey üçün «dən-dən topladığımız» materialların mənbəyi çoxşaxəlidir, daha doğrusu, coğrafiyası çox genişdir. Bu şəbəkəyə Azərbaycan Dövlət Arxivini, Azərbaycan Tarixi Muzeyini, MEA-nın Tarix İnstitutunu, Milli Dövlət Kitabxanasını, Tele-Radio Şirkətini, Kino-foto-fono sənədlər arxivini, AZAL-ı, OAD-KUS-u, siyasi partiyaların və ictimai təşkilatların arxivlərini, habelə, ayrı-ayrı fərdi arxivləri aid etmək olar. Bunlardan başqa, nəzərə alsaq ki, uzun müddət SSRİ-nin tərkibində olmuşuq, onda postsovet məkanında fəaliyyət göstərən arxivlərə də «baş vurmaq» zərurəti qarşısında qaldığımız aydın olar. Xüsusən Rusiyanın, Ukraynanın, Belarusun mərkəzi və əyalət arxivlərində bizim muzey üçün nadir eksponatların «yatdığını» güman edirik.

Biz hazırda axtarışlarla yanaşı, ekspozisiyanın tərtibi ilə məşğul oluruq.

***- Yəqin ki, Azərbaycan Aviasiya Tarixi Muzeyinin maraqlı eksponatları çoxdur?!***

- Belə bir siyahını sadalamaq çox vaxt aparardı. Odur ki, bir neçəsini diqqətə çatdırmaq istəyirəm. Tarixilik baxımından xüsusi əhəmiyyət kəsb edən materiallar arasında bunları qeyd etmək olar:

- İlk dəfə 1910-cu ilin oktyabr ayında Bakı səmasında «Farman» tipli aeroplan görülüb;
- Həmin ildə Bakıda ilk aerodromun tikintisinə başlanıb;
- İlk azərbaycanlı aviasiya mühəndisi Əli Səməd oğlu Verdiyev 1910-cu ildə Fransada təhsilini başa vurub;
- 1915-ci ildə Bakıda dəniz aviasiya məktəbi açılıb;
- 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri general Əliağa Şıxlinskinin əmri ilə ilk milli aviasiya dəstəsi yaradılıb;
- 1920-30-cu illərdə Azərbaycanda Xalq Hərbi Dəniz Komissarlığının hava donanması, aviasiyasının dəniz və quru qoşunları məktəbi, dəniz aviasyia dəstəsi yaradılıb. Bakı-Tbilisi-Bakı aviasiya xətti açılıb;
- 1942-ci ildə Bakının Keşlə qəsəbəsindəki 458 saylı zavodda «UTİ» və «YAK-3» təyyarələri, habelə, aeroxizəklər hazırlanıb...

Bunlardan əlavə muzeyin fondunda ilk milli təyyarəçilərimiz olan Fərrux Ağa Qayıbov, İsa Manafov, Teymur Mustafayev, Leyla Məmmədbəyova, Sona Nuriyeva, Züleyxa Seyidməmmədova haqqında nadir sənədlər var.

Milli aviasiya sənayesinin, habelə aviatorluq peşəsinin təşəkkül dövrü isə ümummilli liderimiz Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərə təsadüf edir. Bunu təsdiq edən yüzlərlə maraqlı eksponatımız var.

Artıq Milli Aviasiya Akademiyasının əsasının qoyulmasından 15 il keçir. Bu münasibətlə payızda yubiley tədbirləri keçiriləcək. Həmin tədbirlərdən biri də Azərbaycan Aviasiya Tarixi Muzeyinin təntənəli açılışı ilə bağlıdır.

Hazırda AZAL-ın baş direktoru Cahangir Əsgərovun və Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevin rəhbərliyi altında yubileyin yüksək səviyyədə keçirilməsi üçün ciddi hazırlıq işləri görülür. Bununla bağlı biz muzey əməkdaşlarının da üzərinə böyük məsuliyyət düşür...

***- Sizi «Şamil müəllim» adlandırırlar? Axı, adınız...***

- Bu, uzun əhvalatdır. Qısası isə ondan ibarətdir ki, tələbə vaxtı hərəmiz bir «ayama» daşıyırdıq. Mənə «Şeyx Şamil» deyirdilər. Sonralar «Şeyx» ixtisar olundu, «Şamil» qaldı... Maraqlısı odur ki, ailəmin üzvləri də məni «Şamil» - deyə çağırırlar...

***- Şamil müəllim, sonda Sizin bir vaxt çalışdığınız nazirliyimizə, ünsiyyətdə olduğunuz oxucularımıza arzu-istəyinizi bilmək istərdik.***

- Nə deyim?! Ömrümün ən mənalı, ən gözəl çağları o müqəddəs ocaqda keçib. Hazırda Mədəniyyət və Turizm Nazirliyi qarşısında daha mühüm vəzifələr durur. Fərəhli haldır ki, Əbülfəs müəllimin gəlişi ilə ciddi dəyişikliklər duyulur, böyük islahatlar aparılır. Əks təqdirdə zamanın tələb etdiyi tərəqqiyə nail olmaq qeyri-mümkündür.

Nazirlikdə və nazirlik sistemində hörmətini saxladığım, xətrini istədiyim adamlar çoxdur. Onların hamısına salamımı, arzu və istəklərimi çatdırın.

Təbii ki, bu sıraya hazırda özünün 40 illik yubileyinə hazırlaşan «Mədəni-maarif» də aiddir. Hamınıza gözəl günlər, böyük uğurlar diləyirəm...

**Y.HİDAYƏTOĞLU**